**UOT: 327.7**
https://doi.org/10.59849/2409-4838.2025.4.100

# AVROPA VƏ TÜRK DÜNYASINDA İNSTİTUSİONAL DƏYİŞİKLİKLƏRİN MÜQAYİSƏLİ TƏHLİLİ

**Leyla Rəfail qızı Nəbiyeva**
Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan
leyla.turqay1115@mail.ru

*Bu məqalədə Avropa İttifaqı (Aİ) ilə Türk Dövlətləri Təşkilatı (TDT) arasında müqayisəli institusional təhlil aparılaraq onların struktur funksionallığı, qərarvermə mexanizmləri və geosiyasi mövqeləri araşdırılmışdır. Tədqiqat Aİ-nin son illərdə artan institusional böhranları, funksional iflicləri və strateji qeyri-müəyyənliklərini üzə çıxarır. Aİ-nin bürokratik çoxluğu, qərarların yekdilliklə qəbul olunması, Brexit-dən sonra parçalanma meyilləri və təhlükəsizlik məsələlərində NATO-ya tam asılılıq onun geosiyasi çəkisini azaldan əsas amillər kimi qiymətləndirilir. Xüsusilə miqrasiya böhranı və enerji siyasətindəki koordinasiyasızlıq Aİ-nin daxilində struktur uyğunsuzluqlarını daha da dərinləşdirmişdir. Bunun əksinə olaraq, Türk Dövlətləri Təşkilatı daha çevik, horizontal və konsensusa əsaslanan qərar mexanizmi ilə fərqlənir. Dövlət Başçısı Şurası (DBŞ) və Xarici İşlər Nazirləri Şurası (DİBK) vasitəsilə qəbul edilən qərarların siyasi liderlik səviyyəsində formalaşması, rotasiya prinsipi və iştirak bərabərliyi təşkilat daxilində koordinasiyanı gücləndirir. Eyni zamanda TÜRKSOY, TÜRKPA və Türk Akademiyası kimi platformalar vasitəsilə mədəni-intelektual inteqrasiya da paralel şəkildə irəliləyir. 2040 Türk Dünyası Strateji Baxışı, Transxəzər Nəqliyyat Dəhlizi və Zəngəzur dəhlizi kimi təşəbbüslər TDT-nin yalnız simvolik deyil, real geosiyasi və iqtisadi gücə çevrilmək niyyətini nümayiş etdirir. Məqalədə belə qənaətə gəlinir ki, Aİ-nin institusional zəifliyi qlobal güc paylanmasında onun çəkisini azaldır, TDT isə yüksələn funksional strukturları ilə yeni regional cazibə mərkəzinə çevrilməkdədir.*

***Açar sözlər:*** *Türk Dövlətləri Təşkilatı, Avropa İttifaqı, institusional müqayisə, qərarvermə mexanizmləri, geosiyasi transformasiya.*

## GİRİŞ

Beynəlxalq münasibətlər sistemində güc mərkəzlərinin yerdəyişməsi və regional inteqrasiya modellərinin artan əhəmiyyəti fonunda Avropa İttifaqı (Aİ) kimi köklü qurumlarla yeni formalaşan Türk Dövlətləri Təşkilatı (TDT) arasında institusional müqayisə aparmaq zərurəti yaranır. Belə bir müqayisə həm zəif və dağınıq strukturların uğursuzluq səbəblərini, həm də çevik və funksional modellərin yüksəliş dinamikasını anlamağa imkan verir; xüsusilə də post-sovet məkanında formalaşan alternativ regional əməkdaşlıq formatlarının legitimliyi və perspektivlərini qiymətləndirmək baxımından bu qarşılaşdırma əhəmiyyətlidir.

Bu baxımdan, tədqiqatımızın məqsədi Avropa İttifaqı ilə Türk Dövlətləri Təşkilatının institusional struktur, qərarvermə mexanizmləri və geosiyasi funksionallıq baxımından müqayisəli təhlilini apararaq, onların qlobal və regional sistemdəki rolu və effektivliyini dəyərləndirməkdir.

Araşdırmada əsasən müqayisəli analiz metodu tətbiq edilmiş, hər iki təşkilatın normativ sənədləri, siyasi qərarları və praktiki fəaliyyət nümunələri təhlil olunmuşdur. İkinci mərhələdə mənbə yönümlü kontekstual təhlil aparılmış və struktur fərqləri funksional göstəricilərlə əsaslandırılmışdır.

### Avropa İttifaqının institusional böhranı

Avropa İttifaqı (Aİ) 20-ci əsrin ikinci yarısında sülh, iqtisadi inkişaf və siyasi inteqrasiya kimi ali məqsədlərlə qurulmuş və uzun müddət bu hədəfləri uğurla reallaşdırmış nadir transmilli layihələrdən biri olmuşdur. Lakin 21-ci əsrin ilk rübündə Aİ-nin institusional strukturu həm funksional,

həm də siyasi cəhətdən dərin böhranlarla qarşı-qarşıya qalmışdır. Bu böhran yalnız texniki tənzimləmə problemləri ilə deyil, həm də təşkilatın daxili legitimliyi, effektiv idarəetmə qabiliyyəti və qərarvermə mexanizmlərinin zəifləməsi ilə bağlıdır. Əvvəla, Aİ-nin hüquqi və institusional arxitekturası ifrat dərəcədə mürəkkəbdir. İttifaqın əsas institutları – Avropa Komissiyası, Avropa Parlamenti, Avropa Şurası, Avropa İttifaqı Şurası və Avropa Ədalət Məhkəməsi müxtəlif səlahiyyət sahələri və prosedurlar əsasında fəaliyyət göstərir [12]. Bu isə zaman-zaman qərarvermədə paralellik, təkrarçılıq və funksional iflic yaradır. Məsələn, Aİ-nin xarici siyasəti ilə bağlı qərarlar, adətən, yekdillik əsasında qəbul edilməlidir. Bu isə praktiki olaraq bir ölkənin vetosu ilə bütöv siyasət prosesinin dayanmasına gətirib çıxarır. Macarıstan və Polşanın miqrasiya və hüququn aliliyi məsələlərində dəfələrlə vetodan istifadə etməsi Aİ-nin institusional çevikliyinin necə zəiflədiyini göstərən faktorlardan biridir [9].

İkincisi, *Brexit* prosesi Aİ-nin həm hüquqi, həm də ideoloji dayanıqlığına ciddi zərbə vurdu. 2016-cı il referendumunun nəticəsi ilə Böyük Britaniyanın Avropa İttifaqından çıxması birliyin təkcə coğrafi deyil, siyasi çərçivəsini də sarsıtdı. Bu, ilk dəfə olaraq Aİ-nin geriyə addım atması yəni genişlənmə deyil, daralma yaşaması idi. Brexit prosesi zamanı Aİ-nin institusional reaksiyası zəif və ziddiyyətli oldu. Əksər hallarda Avropa Komissiyası ilə Avropa Şurası arasında kommunikasiya boşluqları müşahidə edildi və müzakirələrin ilkin mərhələsində vahid siyasi mövqe formalaşdırmaq çətin oldu [7]. Bu, Aİ-nin böhranlara sürətli cavab vermək qabiliyyətinin olmadığını və struktur mexanizmlərinin böhran menecmenti üçün zəif olduğunu göstərdi.

Üçüncüsü, Aİ-nin təhlükəsizlik və müdafiə siyasətində də institusional böhran dərinləşməkdədir. Hərçənd ki, Aİ 2009-cu ildən qüvvəyə minən Lissabon Müqaviləsi ilə ortaq təhlükəsizlik və müdafiə siyasəti prinsiplərini gücləndirmək məqsədi güdürdü, lakin bu sahədə real institusional irəliləyiş baş verməmişdir [5]. 2022-ci ildə Rusiyanın Ukraynaya qarşı müharibəsi zamanı Aİ-nin təhlükəsizlik məsələlərində NATO-ya tam şəkildə bağlı qalması və öz müstəqil hərbi-strateji imkanlarını ortaya qoya bilməməsi təşkilatın təhlükəsizlik sahəsində institusional natamamlığını bir daha üzə çıxardı. Avropa İttifaqı Müdafiə Fondu kimi təşəbbüslər mövcud olsa da, real və praktiki nəticələrdən hələ uzaqdır.

Dördüncü mühüm aspekt miqrasiya siyasətindəki institusional uyğunsuzluqlardır. 2015-ci ildə baş verən miqrasiya böhranı zamanı Aİ daxilində koordinasiyalı və ortaq yanaşma ortaya qoyulmadı. Əksinə, Almaniya kimi ölkələrin "açıq qapı siyasəti" ilə Şərqi Avropa ölkələrinin sərt mühafizəkar mövqeləri arasında kəskin ziddiyyət yarandı. Bu ziddiyyətlər Avropa Komissiyasının vahid miqrasiya planı irəli sürməkdə çətinlik çəkməsinə səbəb oldu [1]. Avropa Parlamentində keçirilən debatlar da bu parçalanmanı dərinləşdirdi. Əlavə olaraq, "Dublin III" müqaviləsinin qeyri-funksional olması və hər bir qaçqının ilk daxil olduğu ölkədə qeydiyyata alınması prinsipi Cənubi Avropa ölkələrinin (İtaliya, Yunanıstan, İspaniya) daha çox yük daşımasına səbəb oldu və institusional ədalətsizliyi artırdı [6].

## ƏSAS HİSSƏ

### Türk dünyasında institusional yüksəliş dinamikası

21-ci əsrin ikinci onilliyindən etibarən qlobal güc mərkəzlərinin coğrafiyası dəyişməkdədir. Qərb dünyasının, xüsusilə də Avropa İttifaqının institusional zəifləməsi fonunda, özünü yeni və funksional regional inteqrasiya mərkəzi kimi göstərən Türk Dövlətləri Təşkilatı (TDT) yüksəlişdə olan struktur modelinə çevrilməkdədir. Əsasən ortaq etno-mədəni və tarixi bağlar əsasında formalaşan bu təşkilatın institusional quruluşu yalnız simvolik deyil, eyni zamanda strateji və funksional dəyərlərə əsaslanır. Bu çərçivədə, TDT-nin əsas qərarverici orqanı olan Dövlət Başçıları Şurası (DBŞ) hər il rotasiya prinsipi ilə sədrliyi həyata keçirən dövlət başçısının rəhbərliyi ilə fəaliyyət göstərir. Bu, təşkilat daxilində simmetrik güc paylaşımına və bütün üzv dövlətlərin proseslərə bərabər qatılmasına imkan yaradır. DBŞ-in qərarları yalnız konsensus əsasında qəbul olunur ki, bu da

TDT-nin daxilində qarşılıqlı etimadın və diplomatik harmoniyanın yüksək səviyyədə olduğunu göstərir [2]. Məsələn, İstanbuldakı Zirvə toplantısında qəbul edilən qərarlarla təşkilatın adı dəyişdirilərək "Türk Dövlətləri Təşkilatı" oldu, bu da öz növbəsində onun daha geniş və institusional identitetini formalaşdırmaq yönündə atılmış strateji addım idi.

Xarici İşlər Nazirləri Şurası isə təşkilatın gündəlik fəaliyyətinin strateji istiqamətlərini müəyyənləşdirir. Bu orqan vasitəsilə üzv ölkələr arasında aktual beynəlxalq məsələlər üzrə koordinasiya təmin olunur. 2024-ci ildə Şuşada keçirilən qeyri-rəsmi Zirvə zamanı qəbul edilmiş qərarlarda iqlim dəyişiklikləri, enerji təhlükəsizliyi və nəqliyyat dəhlizləri kimi məsələlərdə ortaq mövqe nümayiş etdirilmişdi ki, bu da DİBK-in real siyasətə təsir gücünü göstərir [10].

TDT-nin fərqli bir gücləndirici institusional sütunu da mədəni-intelektual platformalardır. Burada TÜRKSOY, Türk Akademiyası, TÜRKPA və Türk Mədəniyyəti və İrsi Fondu xüsusi yer tutur. TÜRKSOY 1993-cü ildə qurulmuşdur və "Türk Dünyasının UNESCO-su" kimi tanınır. 2010-2019-cu illər arasında Paris, Nyu-York, Vyana, Brüssel və Balkan ölkələrində keçirilmiş Novruz tədbirləri Türk mədəniyyətinin dünyaya tanıdılmasında TÜRKSOY-un nə qədər effektiv olduğunu göstərir [8, s. 145]. Bu tədbirlər yalnız mədəni diplomatiya deyil, həm də Türk Dünyasının "yumşaq güc" siyasətinin əsas alətlərinə çevrilmişdir.

Beynəlxalq elm sahəsində isə Türk Akademiyası ortaq tarix, dil və ədəbiyyatla bağlı layihələr həyata keçirərək ideoloji və akademik inteqrasiyanın təmin edilməsində əsas rol oynayır. Təşkilat tərəfindən nəşr edilən ortaq tarix dərslikləri Türk məktəblərində pilot layihə olaraq tətbiq edilməyə başlanmışdır ki, bu da gələcək nəsillər arasında kimlik və tarixi yaddaşın ortaq əsaslarla formalaşmasına xidmət edir [3].

Siyasi dialoqdan mədəni kimlik quruculuğuna qədər uzanan bu institusional strukturun uğurunun əsas səbəbi onun funksional çevikliyi və təbii konsensusa əsaslanan qərarvermə modelidir. Avropa İttifaqında müşahidə olunan texnokratik qərarvermə tərzindən fərqli olaraq, TDT liderlərarası birbaşa dialoqun ön planda olduğu və milli maraqlarla regional vizyonun birləşdirildiyi modellə fəaliyyət göstərir.

**Müqayisəli təhlil: iki modelin institusional fərqləri**

Müqayisəli kontekstdə, Avropa İttifaqı (Aİ) və Türk Dövlətləri Təşkilatı (TDT) fərqli tarixi və geosiyasi kontekstlərdə formalaşsa da, regional inteqrasiya modelinə malik təşkilatlar kimi müqayisə edilə bilər. Lakin son illərdə Aİ-nin "çox sürətli Avropa" (multi-speed Europe) modelinə keçidi və içəridəki parçalanma tendensiyaları onu çevik idarəetmədən uzaqlaşdıraraq dağınıq və texnokratik bir struktur halına gətirmişdir [4]. TDT isə əksinə hələ formalaşma mərhələsində olmasına baxmayaraq, daha horizontal və inklüziv strukturla çevik qərarvermə və funksional əməkdaşlıq qabiliyyətinə malik olduğunu göstərməkdədir. Aİ daxilində "çox sürətli Avropa" ideyası ilk dəfə 1990-cı illərdə müzakirə olunmağa başlansa da, bu yanaşma xüsusilə 2016-cı ildən sonra, yəni Brexit-dən sonrakı dövrdə daha da aktuallaşdı. Bu modelə görə bəzi ölkələr daha sıx inteqrasiyaya getməkdə sərbəstdir, digərləri isə prosesə sonradan və ya məhdud şəkildə qoşula bilər. Məsələn, Avrozonada olan ölkələr Aİ-nin iqtisadi sütunlarını təşkil etsələr də, Polşa və Macarıstan kimi ölkələr avroya tam şəkildə inteqrasiya olunmayıblar. Eyni sahələr müdafiə sahəsində də müşahidə olunur: Almaniya və Fransa Avropa Müdafiə Fondu çərçivəsində daha yaxın əməkdaşlıq etdikləri halda, Mərkəzi Avropa ölkələri bu prosesə daha ehtiyatla yanaşır. Bu, Aİ daxilində "dərəcələndirilmiş üzvlük" psixologiyasını və institusional fraqmentasiyanı dərinləşdirir.

Digər tərəfdən, Türk Dövlətləri Təşkilatı daxilində rotasiya prinsipi və konsensus əsasında qərar qəbul etmə modeli tətbiq edilir. Bu mexanizm təşkilatın daxilində iştirak bərabərliyini təşviq edir. Məsələn, 2021-ci ildə İstanbulda keçirilən 8-ci Zirvədə 2040 Türk Dünyası Strateji Baxışı sənədi qəbul edildi [11]. Bu sənəddə mədəni, siyasi, iqtisadi və texnoloji sahələrdə ortaq istiqamətlər müəyyən olundu və böyük və ya kiçik olmasından asılı olmayaraq bütün üzv ölkələr bu sənədə im-

za atdı. Bu, TDT-də institusional inklüzivliyin praktiki nümunəsidir. TDT-də qərarların dövlət başçıları səviyyəsində qəbul olunması isə çeviklik və siyasi iradənin birbaşa tətbiqi baxımından Aİ-nin texnokratik qərarvermə mexanizmlərindən üstünlük təşkil edir.

Avropa Komissiyası və Avropa Parlamenti arasında xüsusilə maliyyə və tənzimləyici məsələlərdə uzlaşma mexanizmləri uzun və bəzən nəticəsiz prosedurla nəticələnir. Bunun əksinə olaraq, TDT Zirvələrində qəbul edilən qərarlar daha operativ və strateji xarakter daşıyır. Həm də TDT daxilində mədəni-intelektual və parlament əməkdaşlığı da daha çox funksional çeviklik üzərində qurulub. Aİ-nin mədəniyyət sahəsindəki proqramları (Erasmus+, Creative Europe və s.) uzunmüddətli prosedurlar və layihə əsaslı bürokratik filtrlərdən keçərkən, TÜRKSOY-un Novruz tədbirlərinin müxtəlif ölkələrdə geniş miqyasda sürətlə təşkil olunması çevik koordinasiyanın nümunəsidir. Eyni zamanda, TÜRKPA-nın 2009-cu ildən bəri keçirdiyi 12 Baş Məclis Toplantısı hər dəfə bir üzv ölkədə təşkil edilir və parlamentlərarası əməkdaşlığın siyasi və texniki cəhətdən balanslı şəkildə davam etdiyini göstərir. Aİ-də isə Avropa Parlamentində qərarvermə prosesləri zamanla öz effektivliyini itirmiş, "demokratiya defisiti" problemi ilə üzləşmişdir.

Beləliklə, Aİ ilə TDT arasındakı əsas fərq strukturun xarakterində və funksional dəyərlərin yerləşdirilməsindədir. Aİ-nin institusional yüklənməsi və fərqli sürətlə inteqrasiya yanaşması təşkilat daxilində parçalanma tendensiyasını artırır. TDT isə çevik, konsensus əsaslı və etnik-mədəni yaxınlıqlara söykənən model təklif edir. Bu model həm iştirakçı ölkələrin suverenliyinə hörmətlə yanaşır, həm də regional gücün vahid mexanizmlə ifadə olunmasını mümkün edir.

**Post-müqayisə: geosiyasi nəticələr və gələcək perspektivlər**

Yuxarıdakı təhlillərdən aydın olur ki, Avropa İttifaqının zəifliyi ilk növbədə onun strateji və hərbi sahədə özünü qlobal aktor kimi təsdiq edə bilməməsi ilə bağlıdır. 2022-ci ildə Rusiyanın Ukraynaya qarşı başladığı genişmiqyaslı müharibə Avropanın kollektiv təhlükəsizlik və enerji strategiyalarının nə qədər asılı və koordinasiyasız olduğunu ortaya qoydu. Almaniyanın uzun illər boyu Rusiyadan enerji asılılığını azaltmaması və Fransa ilə birlikdə müstəqil Avropa ordusu ideyasını reallığa çevirə bilməməsi Aİ-nin geosiyasi zəifliyini açıq şəkildə nümayiş etdirdi. NATO daxilində ABŞ-ın dominantlığı fonunda Aİ-nin müdafiə identiteti tam formalaşmayıb və bu, Avropanı strateji suverenlikdən məhrum edir. Bundan əlavə, Aİ-nin Cənubi Qafqaz, Orta Asiya və Afrika kimi qonşu regionlarda təsir imkanları azalmaqdadır. Brüsselin bu regionlara yönəlik siyasəti əsasən humanitar yardım, texniki yardım proqramları və liberal dəyərlərin ixracı ilə məhdudlaşır. Halbuki Çin "Bir Kəmər, Bir Yol" təşəbbüsü ilə Orta Asiya üzərindən Avropaya qədər uzanan infrastruktur və logistika layihələrini sürətləndirməkdə, Rusiya isə bölgədə hərbi-siyasi təsirini qorumaqda maraqlıdır. Bu boşluq şəraitində TDT daha sistemli, ortaq kimliyə əsaslanan və məqsədyönlü regional əməkdaşlıq mexanizmi ilə diqqət mərkəzinə çevrilməkdədir.

Burada xüsusilə vurğulamaq lazımdır ki, Türk Dövlətləri Təşkilatının yüksəlişi sadəcə simvolik səviyyədə baş vermir. Təşkilat 2021-ci ildə İstanbulda keçirilən Zirvə görüşündə qəbul etdiyi 2040 Türk Dünyası Strateji Baxışı sənədi ilə uzunmüddətli regional planlama istiqamətini ortaya qoydu. Bu sənəddə nəqliyyat, enerji, rəqəmsal texnologiyalar, təhsil, mədəniyyət və təhlükəsizlik sahələrində dərinləşdirilmiş əməkdaşlıq hədəfləri müəyyən olunmuşdur. Zəngəzur dəhlizinin açılması perspektivi, Transxəzər Nəqliyyat Dəhlizinin aktivləşdirilməsi, Türk İnvestisiya Fondu və Türk İnkişaf Bankı kimi maliyyə institutlarının yaradılması TDT-nin yalnız mədəni deyil, iqtisadi və strateji güc mərkəzinə çevrilmək istədiyini göstərir. Eyni zamanda, təşkilatın institusional strukturunun çevik və simmetrik olması onu digər inteqrasiya qurumlarından fərqləndirir.

Türk dünyasının yüksəlişi yalnız təşkilati güc deyil, həm də geosiyasi əhəmiyyət kəsb edir. Mərkəzi Asiya, Cənubi Qafqaz və Anadolu üzərindən keçən geostrateji xətt enerji, nəqliyyat və təhlükəsizlik baxımından qlobal güclərin diqqət mərkəzindədir. Bu xətt üzərində yerləşən ölkələrin ortaq dil, mədəniyyət və tarix əsasında siyasi birliyi geosiyasi baxımdan yeni regional cazibə mərkəzi

formalaşdırır. Azərbaycanın Avropa enerji təhlükəsizliyində oynadığı rol Türkmənistan qazının gələcəkdə bu sistemə qoşulması ehtimalları və Orta Asiyada Çinlə Rusiya arasında balans siyasəti aparan ölkələrin TDT-yə olan marağı bu inteqrasiyanın qlobal səviyyədə çəkisini artırır.

**YEKUN NƏTİCƏ**

Yuxarıda təqdim olunan müqayisəli institusional təhlil göstərir ki, qlobal güc nisbətlərinin yenidən formalaşdığı bir mərhələdə Avropa İttifaqı daxili institusional təzadlar və geosiyasi manevr məhdudiyyətləri ilə üzləşdiyi halda, Türk Dövlətləri Təşkilatı yeni və çevik struktur modeli ilə yüksəliş trayektoriyasına daxil olmuşdur. Bu vəziyyət yalnız regional münasibətləri deyil, həm də qlobal çoxqütblü düzənin gələcək konfiqurasiyasını müəyyənləşdirməyə başlayır. Bu baxımdan, tədqiqatımız aşağıdakı nəticələrə gəlmişdir:

– Avropa İttifaqının qərarvermə institutlarında çeviklik əvəzinə, paralellik və vetoya əsaslanan bloklanmalar dominantdır. Bu da Aİ-ni həm daxili siyasətdə, həm də böhranlara qarşı regional və qlobal miqyasda təsirli reaksiya vermək imkanından məhrum edir.

– Türk Dövlətləri Təşkilatı isə institusional sadəlik, liderlərarası birbaşa qərar mexanizmi və konsensus əsasında fəaliyyət göstərməsi ilə daha funksional və çevik model yaradır. Bu struktur siyasi simmetriya və qarşılıqlı etimadın qorunmasına şərait yaradır.

– TDT yalnız mədəni dəyərlər üzərində deyil, həm də strateji sahələrdə – enerji, nəqliyyat, rəqəmsallaşma və təhlükəsizlik sahələrində konkret əməkdaşlıq platformaları qurur. 2040 Türk Dünyası Strateji Baxışı və Transxəzər dəhlizi kimi təşəbbüslər bunun sübutudur.

– Aİ-nin qonşu regionlarda nüfuz itkisi fonunda TDT yeni bir regional cazibə mərkəzinə çevrilməkdədir. Xüsusilə Cənubi Qafqaz və Mərkəzi Asiyada Rusiya və Çin arasında balans axtaran dövlətlər üçün TDT alternativ əməkdaşlıq imkanları təqdim edir.

Aİ tam bir inteqrasiya modelidir, TDT isə inteqrasiya potensialı olan əməkdaşlıq modelidir. Məsələn, Aİ dünyanın ən böyük iqtisadi bloklarından biridir. TDT isə hələlik mədəni-siyasi həmrəylik göstərən bir təşkilatdır.

Nəticə etibarilə, Türk Dünyasında formalaşan bu çoxpilləli və qarşılıqlı əlaqəli institusional sistem yeni bir güc modelini meydana çıxarır. TDT artıq yalnız mədəniyyət və dil əsasında qurulan bir birlik deyil, regional əməkdaşlığın təhlükəsizlikdən tutmuş iqtisadiyyata qədər müxtəlif sahələrini əhatə edən strateji platformadır. Bu səbəbdən, Türk Dövlətləri Təşkilatının institusional yüksəlişi təkcə regional miqyasda deyil, eyni zamanda qlobal səviyyədə də nəzərəçarpacaq güc mərkəzi formalaşdırma potensialına malikdir.

## ƏDƏBİYYAT


1. Angela Merkel defends open-door migrant policy, ties with Russia in new memoir. France24. URL: https://www.france24.com/en/europe/20241126-angela-merkel-migrant-russia-memoir
2. Azərbaycan - Türk Dövlətlər Təşkilatı (TDT) münasibətləri. Azərbaycan Respublikası XİN. URL: https://mfa.gov.az/az/category/regional-teskilatlar/azerbaycan-turkdilli-dovletlerin-emekdasliq-surasi-tdes-munasibetleri
3. Azərbaycanda "Ortaq Türk tarixi" dərsliyi proqrama daxil ediləcək. URL: https://sherg.az/tarix/107512
4. Brudzińska, K. Multi-speed Conceptis in the European Union's DNA. URL: https://ec.europa.eu/programmes/erasmus-plus/project-result-content/3046973f-d310-4d54-a89b-f31697143d04/Multi-
5. Das Parlament. Europäisches Parlament. Der Vertrag von Lissabon: mehr Befugnisse für das Europäische Parlament. URL: https://www.europarl.europa.eu/about-parliament/de/parliaments-powers/the-lisbon-treaty

6. Dublin III Regulation. UNHCR. URL: https://help.unhcr.org/slovenia/dublin-iii-regulation/

7. European Commission. Consequences of Brexit. URL: https://commission.europa.eu/strategy-and-policy/relations-united-kingdom/new-normal/consequences-brexit_en

8. Küçükdoğan, O. Türk Devletleri Teşkilatı'nın kuruluş süreci / O.Küçükdoğan. - Gebze: Gebze Teknik Üniversitesi, - 2024. - 189 s.

9. Liboreiro, J. & Zsiros, S. Hungary and Poland rally allies to defend veto power in EU foreign policy. Euronews. URL: https://www.euronews.com/my-europe/2023/05/23/hungary-and-poland-rally-allies-to-defend-veto-power-in-eu-foreign-policy

10. Şuşada TDT Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü: İlham Əliyev tədbirdə çıxış edib. URL: https://oxu.az/siyaset/susada-tdt-dovlet-bascilarinin-qeyri-resmi-zirve-gorusu-ilham-eliyev-tedbirde-istirak-edir

11. Tomar, C. Tarihi dönüm noktası: Türk Dünyası 2040 Vizyon Belgesi. AA. URL: https://www.aa.com.tr/tr/analiz/tarihi-donum-noktasi-turk-dunyasi-2040-vizyon-belgesi/2425103

12. Types of institutions and bodies. European Union. URL: https://european-union.europa.eu/institutions-law-budget/institutions-and-bodies/types-institutions-and-bodies_en

## COMPARATIVE ANALYSIS OF INSTITUTIONAL CHANGES IN EUROPE AND THE TURKISH WORLD

**L.R. Nabiyeva**

This article presents a comparative institutional analysis between the European Union (EU) and the Organization of Turkic States (OTS), focusing on their structural functionality, decision-making mechanisms, and geopolitical roles. The study reveals the EU's growing institutional crises, functional paralysis, and strategic ambiguity in recent years. Bureaucratic complexity, unanimity-based decision-making, post-Brexit fragmentation trends, and full dependence on NATO in security matters are identified as key factors diminishing the EU's geopolitical weight. The migration crisis and the lack of coordination in energy policy have further deepened structural inconsistencies within the Union. In contrast, the Organization of Turkic States stands out with its more flexible, horizontal, and consensus-based decision-making model. Decisions made through the Council of Heads of State and the Council of Foreign Ministers are shaped at the level of political leadership, while the principles of rotation and equal participation strengthen internal coordination. At the same time, cultural and intellectual integration is advanced through platforms such as TURKSOY, TURKPA, and the Turkic Academy. Initiatives like the Turkic World Vision 2040, the Trans-Caspian Transport Corridor, and the Zangezur Corridor demonstrate the OTS's ambition to become a real geopolitical and economic actor, beyond its symbolic function. The article concludes that the EU's institutional weaknesses are reducing its influence in global power dynamics, while the OTS, with its increasingly functional structures, is emerging as a new regional center of attraction.

**Keywords:** *Organization of Turkic States, European Union, institutional comparison, decision-making mechanisms, geopolitical transformation*

## СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ИНСТИТУЦИОНАЛЬНЫХ ИЗМЕНЕНИЙ В ЕВРОПЕ И ТУРЕЦКОМ МИРЕ

**Л.Р. Набиева**

В статье представлен сравнительный институциональный анализ между Европейским Союзом (ЕС) и Организацией тюркских государств (ОТГ), с акцентом на их структурную функциональность, механизмы принятия решений и геополитическую роль. Исследование показывает, что в последние годы ЕС сталкивается с нарастающим институциональным кризисом, функциональным параличом и стратегической неопределённостью. Бюрократическая перегруженность, необходимость единогласия в принятии решений, тенденции к фрагментации после Брексита и полная зависимость от НАТО в вопросах безопасности рассматриваются как ключевые факторы ослабления геополитического веса ЕС. Кризис миграции и отсутствие согласованной энергетической политики ещё больше усугубили структурные дисбалансы внутри Союза. Напротив, Организация тюркских государств отличается более гибкой, горизонтальной и основанной на консенсусе моделью принятия решений. Решения, принимаемые Советом глав государств и Советом министров иностранных дел, формируются на уровне политического руководства, а принцип ротации и равного участия укрепляют внутреннюю координацию. Одновременно культурно-интеллектуальная интеграция осуществляется через такие платформы, как ТЮРКСОЙ, ТЮРКПА и Тюркская академия. Инициативы, такие как Стратегическое видение Тюркского мира до 2040 года, Транскаспийский транспортный коридор и Зангезурский коридор, свидетельствуют о стремлении ОТГ стать реальным геополитическим и экономическим актором, а не только символической структурой. В заключение делается вывод, что институциональная слабость ЕС снижает его влияние в глобальном распределении сил, в то время как ОТГ, обладая всё более функциональными структурами, превращается в новый региональный центр притяжения.

**Ключевые слова:** *Организация тюркских государств, Европейский Союз, институциональное сравнение, механизмы принятия решений, геополитическая трансформация*